3 fevral / 2021

# Azərbaycan Respublikası Kino Agentliyi yaradılacaq

Ölkəmizdə kino sahəsində yeni qurum – Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) yaradılacaq. Mədəniyyət naziri Anar Kərimov bu barədə Real TV-yə müsahibəsində deyib. Nazir ölkəmizdə kino sənətinin inkişafı ilə bağlı görüləcək işlər, "Böyük Qayıdış" qısametrajlı bədii, sənədli və animasiya filmləri müsabiqəsi barədə danışıb.

Qeyd edib ki, kino sahəsində yeni qurumun yaradılmasında əsas üç məqsəd var. Birincisi, müasir infrastrukturun yaradılması; maddi-texniki bazanın qurulması, ikincisi, hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi; üçüncüsü, kino sahəsində çalışan insan resurslarının təkmilləşdirilməsi və gücləndirilməsi.

Nazir deyib: "Kino haqqında yeni qanun layihəsini Milli Məclisə təqdim edib payız sessiyasında müzakirəsinin keçirilməsini istəyirik. Hazırda bununla bağlı müzakirələr aparırıq. Planımızda ilk sırada olan məsələ isə Azərbaycan Respublikası Kino Agentliyinin yaradılmasıdır. Agentlik publik hüquqi şəxs kimi fəaliyyət göstərəcək".

Anar Kərimov vurğulayıb ki, eyni zamanda kino konsepsiyası çərçivəsində xarici kinostudiyaların Azərbaycanda film çəkilişlərini təşviq edən bir platforma yaradılması nəzərdə tutulub: "Bu bizə imkan verəcək ki, xaricdə olan kinostudiyalar öz filmlərini Azərbaycanda çəksinlər və təbii ki, bu həm də Azərbaycana sərmayə gətirəcək".

Nazir "Böyük Qayıdış" müsabiqəsi barədə də söz açıb. Qeyd edib ki, müsabiqə Vətən müharibəsində qazanılmış böyük Zəfərə kino vasitəsilə töhfə vermək üçün elan olunub. "Məqsədimiz bu sahədə çalışan insanların milli vətənpərvərlik ruhunda filmlər ərsəyə gətirməsi və cəmiyyətə təbliğ edilməsidir. Biz bu layihə ilə yaradıcı insanlara dəstək olmaq istəyirik", – deyə nazir bildirib.

**Lalə AZƏRİ**